**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**QƏRAR**
**№ SQ-07/2024-2**

**Naxçıvan şəhəri** **10 sentyabr 2024-cü il**

**01 sentyabr 2024-cü il tarixdə keçirilmiş VII Çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin yekunlarının müəyyənləşdirilməsinə dair**

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.2-ci, 20.4-cü, 20.13-cü, 22.3-cü, 23.3-cü və 23.4-cü maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının ilk iclası

**q ə r a r a  a l ı r:**

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 14-cü maddəsinin 1-ci və 2-ci bəndlərinə, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 iyun 2024-cü il tarixli Sərəncamına müvafiq olaraq 01 sentyabr 2024-cü il tarixdə VII Çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 12-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 27.1-ci maddələri nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 45 seçki dairəsi və həmin Qanunun 32-ci maddəsi əsasında müvafiq seçki dairələrinin tərkibində təşkil edilmiş 331 seçki məntəqəsi üzrə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 89-cu və 90-cı maddələrinə uyğun olaraq dairə və məntəqə seçki komissiyaları tərəfindən tərtib edilmiş səsvermənin nəticələrinin müəyyən edilməsi haqqında protokolları Qanunla müəyyən edilmiş müddətdə qəbul edərək araşdırılıb yoxlanılmasını təşkil etmişdir.

Müəyyən olunmuşdur ki, məntəqə seçki komissiyaları səsvermə prosesi başa çatdıqdan dərhal sonra ardıcıl olaraq seçki bülletenlərinin sayılmasını həyata keçirmiş, müvafiq akt və yekun protokollarının tərtib olunmasını nöqsansız yerinə yetirərək, qanunla

müəyyən olunmuş müddətdə tələb olunan bütün sənədləri dairə seçki komissiyalarına çatdırmışlar.

Dairə seçki komissiyaları isə məntəqə seçki komissiyaları tərəfindən təqdim olunmuş yekun protokolları, onlara əlavə olunmuş digər sənədlərlə birlikdə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununun tələblərinə müvafiq olaraq araşdıraraq, həmin sənədlərin seçkilərin nəticələrini müəyyən etməyə əsas verdiyi qənaətinə gəlmişlər.

Muxtar respublikada fəaliyyət göstərən seçki məntəqələrindən heç birində səsvermənin nəticələri ləğv olunmamış, bütün seçki məntəqələrində səsvermə baş tutmuş hesab olunmuşdur.

Ali Məclisə seçkilər üzrə 45 dairə seçki komissiyası, tərkiblərinə daxil olan müvafiq məntəqə seçki komissiyalarının yekun protokol göstəriciləri əsasında protokollar tərtib edərək, tələb olunan digər sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim etmişlər. Dairə və məntəqə seçki komissiyalarının protokolları bütün komissiya üzvləri tərəfindən heç bir xüsusi qeyd aparılmadan imzalanmışdır.

Seçki komissiyalarından Mərkəzi Seçki Komissiyasına daxil olmuş protokollara əsasən, seçici siyahılarında qeydə alınmış 288358 seçicidən 111834 nəfəri, yəni 38.78 faizi seçkilərdə iştirak etmiş, seçki qutularında olan seçki bülletenlərinin 111009 ədədi, yəni 99.26 faizi etibarlı sayılmış, 825 ədəd bülleten, yəni 0.74 faizi etibarsız sayılmış, məntəqə seçki komissiyalarına verilmiş 288356 ədəd bülletendən 38 ədədi seçicilər tərəfindən korlanmış, 176484 ədəd bülleten isə istifadə edilmədiyi üçün ləğv edilmişdir.

Seçki günü səsvermənin gedişi zamanı seçicilərin rahat səs vermələri təmin olunmuş, vətəndaşların seçki hüquqlarının pozulması ilə bağlı namizədlər, seçkiləri müşahidə edən şəxslər və ya seçicilər tərəfindən seçki komissiyalarına şikayət daxil olmamışdır.

Mərkəzi Seçki Komissiyası, seçki dairələri üzrə 01 sentyabr 2024-cü il tarixdə keçirilmiş seçkilərin nəticələrinə dair dairə seçki komissiyalarından daxil olmuş protokolların, onlara əlavə edilmiş sənədlərin "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa uyğunluğunu araşdıraraq yoxlamışdır.

Müəyyən olunmuşdur ki, həmin sənədlər və seçkilərin nəticələrini müəyyən edən müvafiq dairə seçki komissiyalarının protokolları Qanunun tələbinə uyğun olduğundan 45 seçki dairəsi üzrə VII Çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilmiş vətəndaşlar Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilməli və seçkilərin yekunlarına dair sənədlər yoxlanılıb təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikası Konstitusiyasının

16-cı və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.2-ci maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə göndərilməlidir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.9-cu, 23.3-cü və 93.2-ci maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

q ə r a r a  a l ı r:

**1.** 01 sentyabr 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 seçki dairəsi üzrə keçirilmiş seçkilərdə seçki dairələri üzrə səsvermənin nəticələrinə uyğun olaraq ən çox səs toplamış namizədlər aşağıdakı kimi müəyyən edilsin:

| | |
|---|---|
| 1 saylı Sədərək seçki dairəsi üzrə: | İsmayılov Mahir İslam oğlu |
| 2 saylı Dəmirçi seçki dairəsi üzrə: | Quliyeva Zeynəb Kərim qızı |
| 3 saylı Maxta seçki dairəsi üzrə: | Şıxəliyev Emin Arif oğlu |
| 4 saylı Yengicə seçki dairəsi üzrə: | Abbasov Əli Feyzulla oğlu |
| 5 saylı Çomaxtur seçki dairəsi üzrə: | Nəcəfsoy Pərvin Vidadi qızı |
| 6 saylı Çərçiboğan seçki dairəsi üzrə: | Babayeva Aynur Arif qızı |
| 7 saylı Xanlıqlar seçki dairəsi üzrə: | Novruzov Azad Sevindik oğlu |
| 8 saylı Düdəngə seçki dairəsi üzrə: | Bayramov Mübariz Rəcəb oğlu |
| 9 saylı Mahmudkənd seçki dairəsi üzrə: | Şükürov Kamil Qəzənfər oğlu |
| 10 saylı Şərur şəhər seçki dairəsi üzrə: | Hacıyeva Sevil Məhəmmədəli qızı |
| 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə: | Həsənova Sevinc Nəsrəddin qızı |
| 12 saylı İbadulla seçki dairəsi üzrə: | Məmmədov Məmməd Kərəm oğlu |
| 13 saylı Püsyan seçki dairəsi üzrə: | Novruzov Rafiq Novruz oğlu |
| 14 saylı Qarabağlar seçki dairəsi üzrə: | Zeynalov Təbriz Eyvaz oğlu |

| | |
|---|---|
| 15 saylı Qıvraq seçki dairəsi üzrə: | Orucova Xəzəngül Yunis qızı |
| 16 saylı Xok seçki dairəsi üzrə: | Məmmədov Mövlan Ələddin oğlu |
| 17 saylı Nehrəm seçki dairəsi üzrə: | Cəfərov Rauf Mehralı oğlu |
| 18 saylı Nehrəm seçki dairəsi üzrə: | Rzayev Teymur Yaqub oğlu |
| 19 saylı Babək şəhər seçki dairəsi üzrə: | Allahverdiyeva Həbibə Rəşad qızı |
| 20 saylı Zeynəddin seçki dairəsi üzrə: | Həşimov Əli Həsənqulu oğlu |
| 21 saylı Sirab seçki dairəsi üzrə: | Qənbərov Qafar Tahar oğlu |
| 22 saylı Şıxmahmud seçki dairəsi üzrə: | Məmmədov Üzeyir Səyyad oğlu |
| 23 saylı Cəhri seçki dairəsi üzrə: | Bayramova Ülkər İmamqulu qızı |
| 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Əliyeva Nuray Yadigar qızı |
| 25 saylı Naxçıvan şəhər dairəsi üzrə: | Məmmədova Xumar Şəmsi qızı |
| 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Orucov Asəf Yunis oğlu |
| 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Məmmədzadə Vüsal Əziz oğlu |
| 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Babayeva Təhminə Adil qızı |
| 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Məmmədov Bəhruz Qibləli oğlu |
| 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Əhmədova Şəhla Hüseyn qızı |
| 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Məmmədov Nazim Məmməd oğlu |
| 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Qasımov Əziz Kamal oğlu |
| 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə: | Dünyamalıyeva Aysel Məmməd qızı |
| 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə: | Rüstəmova Gülşad Qəzənfər qızı |
| 35 saylı Kolanı seçki dairəsi üzrə: | Tarverdiyeva Gülxarə Budaq qızı |
| 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə: | Məmmədov Ramiz Gülməmməd oğlu |
| 37 saylı Culfa şəhər seçki dairəsi üzrə: | Əliyev Əjdər Zahid oğlu |

| | |
|---|---|
| 38 saylı Yaycı seçki dairəsi üzrə: | Xudiyev Rza Əli oğlu |
| 39 saylı Bənəniyar seçki dairəsi üzrə: | Abdullayev Qəzənfər İsmayıl oğlu |
| 40 saylı Saltaq seçki dairəsi üzrə: | Canməmmədov Canməmməd Ramiz oğlu |
| 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə: | Məmmədov Bəxtiyar İbrahim oğlu |
| 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə: | Abdullayev Arzu Kamal oğlu |
| 43 saylı Vənənd seçki dairəsi üzrə: | Nəbiyev Ramil Paşa oğlu |
| 44 saylı Dəstə seçki dairəsi üzrə: | Rzayev Elmar İlqar oğlu |
| 45 saylı Sabirkənd seçki dairəsi üzrə: | Əhmədova Gülxarə Manaf qızı |

**2.** Seçkilərin yekunlarına dair sənədlər yoxlanılıb təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə göndərilsin.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Əkrəm Hüseynzadə**

**Katib:** **Arif Ağayev**